# MƏDƏT ƏYYUBOĞLUNUN YUBİLEYİNDƏ

Fevralın 22-də «Azərkitab»da Mədət Əyyuboğlunun 60 illik yubileyi və bu yubiley işığında ərsəyə gəlmiş Əli Rza Xələflinin «Şair-publisist Mədət Əyyuboğlu» kitabının təqdimatı keçirildi. Tədbiri Mətbuat Şurasının sədri, Millət vəkili Əflatun Amaşov açıb, iştirakçıları salamladı. Yubilyar barəsində ümumi bioqrafik məlumatı diqqətə çəkib, qeyd etdi ki, BDU-nun jurnalistika fakültəsini bitirib, korrektorluqdan başlayıb, jurnalistika sahəsində - Mədəniyyət və İnformasiya Nazirliyinin Kütləvi İnformasiya Vasitələrinin baş idarəsinin rəisi vəzifəsinə kimi şərəfli yol keçib. O vaxt həmin vəzifə nazir müavini statusunda idi. Sonradan Mətbuat və İnformasiya Nazirliyi bağlandı. Mədət Əyyuboğlu isə jurnalist, publisist, şair, yaxşı vətəndaş, yaxşı ailə başçısı kimi tanındı.

Daha sonra Ə.Amaşov mətbuat sahəsindəki xidmətlərinə və 60 illik yubileyinə görə Mədət Əyyuboğluna Mətbuat Şurasının diplomunu təqdim edib, məruzə üçün sözü «Kredo» qəzetinin baş redaktoru Ə.R.Xələfliyə verdi.

- Yubilyarın simasında iki obraz formalaşıb: biri şair Mədət Əyyuboğlu, ikincisi publisist Mədət Məmmədov bunların arasındakı məsafə Mədət Məmmədov obrazını bütövləşdirir. Hər iki qütb dəyərlidir: şair qütbü də, publisist qütbü də. Zaman onu təbiətcə elə formalaşdırıb ki, dostluqda sədaqətli, ailədə gözəl ailə başçısı, cəmiyyətdə gözəl vətəndaşdır.

Ə.R.Xələfli çıxışında qeyd etdi ki, biz xeyli illər əvvəl görkəmli ziyalı, dəyərli, nüfuzlu, ağsaqqal jurnalist Firudin Rəsulovun haləsində birləşdik. Məqsədimiz-məramımız bir oldu. Bu gün də artıq sədaqətli dostlar kimi bir yerdəyik.

Ə.R.Xələfli 10 mart 1959-cu ildə Ağdamın Güllücə kəndində dünyaya göz açan M.Əyyuboğlunun 30 il mətbuatda çalışdığını, «Qızıl Qələm», H.Zərdabi mükafatları laureatı olduğunu və lirik şair kimi bir neçə kitab müəllifi olduğunu da diqqətə çəkdi. Özünün təqdimatı keçirilən kitabın 3 hissədən ibarət olduğunu bildirdi. I hissədə M.Əyyuboğlu haqda öz düşüncələrini ortaya qoyduğunu, II hissədə Mədət Əyyuboğlunun özünün ayrı-ayrı vaxtlarda yazdığı publisistik yazıları toplayıb təqdim etdiyini, III hissədə isə ziyalıların M.Əyyuboğlu haqda dediklərini verdiyini nəzərə çatdırdı.



Məruzəçi onu da göstərdi ki, özünə çəkilmiş, öz dünyasına sığınmış M.Əyyuboğlu əgər müstəqil Azərbaycan olmasa idi, publisist, mətbuat təşkilatçısı və şair kimi bu dərəcədə görünə bilməzdi. Müstəqilliyimiz onun görünə bilməyinə şərait yaratdı. Mifik, obrazlı düşüncədə ömür 100 ildir. Ancaq nədənsə 60-a daha çox önəm veririk. Görünür 40 il ərzində insan öz enerjisi, gücü ilə özünü təsdiq edə bilir ki, 60-ında da özünün yubileyini bu səpkidə pardaqlığı ilə keçirməyə üstünlük verir. Bəli, bu gün 60 yaşlı Mədət Əyyuboğlunun mənəvi haqqı çatır ki, üzünü cəmiyyətə tutub özünə layiq olan haqqı alsın...

Əflatun müəllim sözü jurnalistikamızın ağsaqqalı, professor Cahangir Məmmədliyə verdi.

- Mədət Əyyuboğlu Universitetdə ona dediyim birinci dərsdən yadımda qalıb. O, həmişə mənə zəng edib əhvalımı soruşur, sanki bununla Ağdama qaytarır məni. O, sübut etdi ki, vətəndaşlıq əvvəldir, sonra jurnalistikadır. Publisistikanı hamı anlayır, amma poeziyanı hamı başa düşmür. Ondakı vətən sevgisinə görə bu gün müasir jürnalistikanın elitası bura yığılıb, - deyən professor öz keçmiş tələbəsinə təbriklərini çatdırıb, uğurlar arzuladı.

Bakı Biznes Universitetinin rektoru İbad müəllim dedi ki, 20 ilə yaxındır ki, hər gün görüşürük. Amma onun haqqında yazılmış kitabı vərəqlədikcə hiss olunur ki, Əli Rza müəllim onu sanki daha yaxından tanıyır. Onun qəlbindən keçənləri qələmə alıb. Elə bil iç-içə iki ürək var bu kitabda. O dövrdə mətbuatı nizamlamaq kimi ağır bir yükün altına çiyin vermək kimi məsul bir işdə çalışan M.Əyyuboğlu əsl insan, layiqli vətəndaşdır.

Professor Elçin Mehrəliyev çıxışda Mədət müəllimgilə ailəlikcə yaxın olduqlarını söyləyib, qeyd etdi ki, bu ailənin hər birində istedad bir cürə üzə çıxıb, atası yaxşı şəbəkə ustası idi, qardaşı Murad yaxşı rəqqas idi. Hərədə bir cürə üzə çıxan vergi Mədət müəllimdə sözdə özünü göstərdi, onun mənəvi-iradi keyfiyyətləri istedalı lirik şair kimi özünü doğrultdu və doğulduğu kənddən geniş dairəyə çıxaraq onu tanıtdırdı.

Professor Təyyar Salamoğlu Mədət müəllimin şeirini misal çəkib təhlil etdi. Dilimiz və ədəbiyyatımız varlığımızdır, dil və ədəbiyyat milli şüuru formalaşdırır, - deyib, Xəlil Rzanın «Vətəndaş olmasa, boş şeydir Vətən» misrasına rəğmən söylədi ki, M.Əyyuboğlu şair-publisist olmaqla yanaşı, həm də Vətənin layiqli vətəndaşıdır.

Professor Baba Babayev Lunaçarskinin fikrinə söykənib dedi ki, insan iki dəfə yubiley keçirdir - biri 50 yaşda, biri də 100 yaşda. 100 yaş hər kəsə nəsib olmur. Bu mənada 60 yaşın qeyd olunması çox təqdirəlayiq haldır. Bu gün təqdimatı olan kitabın müəllifi ilə M.Əyyuboğlu arasında harmoniya var. Hər ikisi şair-publisistdir, qeyrətli vətən övladıdır.

Müşfiq Ələsgərli: - jurnalistikanın texnologiya və ruh tərəfi var. Texnologiya tərəfi qələmdir, klaviatura və s.-dir ki, dəyişə bilirlər. Ruh isə dəyişməzdir. Amma təəssüf ki, bəzən o ruha xələllik gəlir, qələm xalqa qarşı olur. Yəni texnologiyanı yaxşı bilib, jurnalistikanın ruhunu bilməyənlər olur. Amma jurnalistikada körpü yaradanlar qızıl insanlardır. Mədət müəllim belə qızıl insan, qızıl ortanı yaradanlardan biridir. Jurnalistikamızın qızıl fondu olan Mədət müəllimə uzun ömür, cansağlığı, uğurlar arzulayıram.

Məmmədov Əbülfət Yunis oğlu: - Mən ədəbiyyatçı yox, texniki sahənin adamıyam. İnsanın birinci peşəsi yaxşılıq olmalıdır. Mədət müəllim kəndinə, elinə bağlı, qayğıkeş adamdır. İnsana əməlinə görə qiymət verilir. Mən Mədət müəllimə cansağlığı, uzun ömür arzulayıram.

Şair Rəfail İncəyurd: - İstedad olmasa, nə şair, nə publisist, nə şəxsiyyət olmaq olur, - deyib, M.Əyyuboğlu haqda xoş arzular söylədi.

Tələbə yoldaşı, fəlsəfə doktoru Yaqut Əşrəfova: - Mədətin tələbəlikdə bir bənd şeiri bizi də ağladıb, özü də kövrəlib ağlayıb, həm də asıb-kəsən olub. Onun bir eqoizmi də olub. Xarakterdə bir eqo da olmalıdır ki, ətrafındakılar da insanı dəyərləndirsinlər, hörmət qoysunlar. İnsanın özünə qarşı hörməti, eqosu olmasa, onu heç qıraqdan da görüb-dəyərləndirmirlər. Mədət müəllim həm də milli mentalitetə bağlı bir insandır, ona görə də ona tələbə dostları adından qılınc bağışlayırıq, - deyib Mədət Əyyuboğlunu təbrik etdi.

İş yoldaşı Xalidə xanım M.Əyyuboğlunun vətənpərvərliyindən, dövlətçiliyin keşiyində durmasından, gələcəyimizə, müstəqilliyimizə qarşı diqqətcil olması kimi müsbət keyfiyyətlərindən söz açıb, təbriklərini çatdırdı.

Tahir Aydınoğlu: - Elə bilirəm ki, deyilənlərin hamısını mən dedim, deyilənlər mənə deyildi. Aylarla görüşmürük, amma mənən bir yerdəyik, birlikdəyik. Dövlət və xalq arasında qızıl bir ortaq var, Mədət müəllim o cür insanlardandır. Jurnalist ictimai xadimdir, ictimai xadim isə həyatını çoxluğa həsr eləmiş insan deməkdir. Mən Mədət müəllimə cansağlığı və uğurlar arzulayıram.

Söz adamlarından Umud Rəhimoğlu, Yusif müəllim, Seymur Verdizadə, Rəşid Hüseynov və başqa dostlar-tanışlar yubilyarın ünvanına xoş fikirlər səsləndirdilər, təbriklər söylədilər.

«Azərkitab»ın rəhbərliyinə belə bir məclisə yer verdiyinə görə minnətdarlıq duyğularını ifadə edən Mətbuat Şurasının sədri Əflatun Amaşov sonda sözü yubilyara verdi.

Mədət Əyyuboğlu tədbir iştirakçılarına təşəkkürlərini çatdırdı və tədbirin bədii hissəsi «Dan ulduzu» restoranında davam etdirildi.

*Şakir ƏLİFOĞLU*